# MÜBARİZ KEŞİKDƏ

15 avqust 2019-cu il
Cümə axşamı
№ 31 (3446)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Qurban bayramı Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək, insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirir.

Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Qurban bayramı münasibətilə bir daha hər birinizə səmimi təbriklərimi çatdırır, qurbanlarınızın Allah tərəfindən qəbul olunmasını arzu edirəm. Qoy, bu mübarək bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 9 avqust 2019-cu il.*

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB

Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Qurban bayramı münasibətilə sizləri ürəkdən təbrik edirəm. İnsansevərlik, xeyirxahlıq, paylaşmaq, mərhəmət hisslərinin rəmzi olan bu müqəddəs gündə xalqımıza cansağlığı, xoş güzəran, əmin-amanlıq, tükənməyən sevgi arzu edirəm. Allah dualarınızı qəbul etsin!"

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVANIN PİRALLAHI RAYONUNA SƏFƏRİ

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verib.

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış olublar.

Həmin gün Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzi istifadəyə verilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsib.

Gənclər Mərkəzinin üçmərtəbəli binasında Heydər Əliyev muzeyi fəaliyyət göstərir. Burada ulu öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlar nümayiş olunur. Mərkəzdə, eyni zamanda, akt zalı, elektron oxu və nikah zalları, robopark, rəsm, keramika-heykəltəraşlıq, fotostudiya, "bacarıqlı əllər" dərnəkləri və sərgi salonu yaradılıb. Burada gənclərin asudə vaxtının səmərəli təşkili, onların müxtəlif peşə və sənətə yiyələnməsi məsələsinə xüsusi önəm veriləcək.

Daha sonra YAP Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışı olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda yeni inşa olunmuş "Mirvari" Park Kompleksində yaradılan şəraitlə tanış olublar.

Sonra dövlətimizin başçısı və birinci xanım "Mirvari" Park Kompleksində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ictimaiyyət nümayəndələrini salamlayıblar.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün inşa edilən kompleksə gələrək, binalardakı mənzillərdə yaradılan şəraitlə tanış olublar.

## "AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİNDƏ VƏ İNZİBATİ XƏTALAR MƏCƏLLƏSİNDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2019-cu İL 27 İYUN TARİXLİ 1626-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1626-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasının nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 9 avqust 2019-cu il.*

***Prezident Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub.***

***Azərbaycanın Birinci vitse-prezidenti bu mükafata Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülüb.***

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov 2019-cu il avqust ayının 31-də Şəki Şəhər-Rayon Polis Şöbəsində Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

## POLİSİM MƏNİM

Nə üçün bizə-Azərbaycan Polisinə çamur atanlara verilən cavabları formal təsir bağışlamasın deyə rəsmi ton, ümumi söz çərçivəsindən kənara çıxara bilmirik...? Nə vaxtdır ki, içimdən gələn bir sual bütün rahatlığımı pozub. Əslində, vacib dövlət qurumlarından biri olan polis təşkilatının bu gün əksər dünya ölkələrinin təcrübəsində qeydə alınan və qəbul edilən ictimaiyyətlə münasibət taktikası elə bucürdür. Çamur atanların hədəfi bəllidir: Azərbaycan gəncliyi...

Sosial şəbəkələrdən oxuduğum xəbər məni məyus etdi. Azərbaycanın uğurlarının, o cümlədən idman nailiyyətlərinin kölgəsində qalan, daha doğrusu, yoxa çıxan bədnam qonşumuz heç bir sahədə bizimlə rəqabət apara bilmədiyi üçün bu dəfə "məndə varam" demək məqsədilə Qarabağda məhəllə uşaqlarının "dava-dava" oyununa bənzər "Pan Armeniyan" adlı idman yarışları keçirir...

*Bax səh.2.*

# POLİSİM MƏNİM

**Nə üçün bizə-Azərbaycan Polisinə çamur atanlara verilən cavabları formal təsir bağışlamasın deyə rəsmi ton, ümumi söz çərçivəsindən kənara çıxara bilmirik...? Nə vaxtdır ki, içimdən gələn bir sual bütün rahatlığımı pozub. Əslində, vacib dövlət qurumlarından biri olan polis təşkilatının bu gün əksər dünya ölkələrinin təcrübəsində qeydə alınan və qəbul edilən ictimaiyyətlə münasibət taktikası elə bucürdür. Çamur atanların hədəfi bəllidir: Azərbaycan gəncliyi.**

Elə mən də üzümü yenidən müstəqilliyimizə qovuşmaq üçün tankların üstünə əliyalın, dillərində azadlıq şüarı gedən, xalqımızın tarixində, eləcə də yaddaşında ölümsüzlük qazanan, yaşı müstəqilliyimizdən böyük olan o mübariz gəncliyin davamçılarına tuturam. Onlara xatırlatmaq istəyirəm ki, ötən əsrin sonlarında, müstəqilliyimizin ilk illərində istifadəsində az-çox silah-sursatı olan yeganə nizami qurum kimi qəsbkarların qabağına çıxaraq, torpağımıza, yurdumuza uzanan xain əlləri kəsən, qıcanan dişləri qıran Azərbaycan Polisi, milli polisimiz və daxili qoşunların hərbi qulluqçuları idi...



Vətənimizin müdafiəsində şəhidlik zirvəsini ilk dəfə fəth edənlərin də, igidlik, ərənlik məktəbini yaradanların da, Azərbaycanın ilk Milli Qəhrəmanı adına layiq görülənlərin də polis olduğunu əksəriyyət yaxşı bilir.

Əziz gənclər, bunları daha dərindən bilmək, polis adına ləkə yaxanlara tutarlı cavab vermək üçün ata-analarınızdan, baba-nənələrinizdən soruşun, rəsmi qaynaqlara, həmin dövrün mətbuatına baxın, internet mənbələrini, tarixi faktları arayın, araşdırın və təhlil edin. Yaxşı olardı ki, rayon qəzetlərinə də nəzər salıb, sadə insanların dilindən yazılanları da oxuyun. Həm də imkan tapıb, Ağdamın, Xocalının, Laçının, Şuşanın, Kəlbəcərin və digər əsir rayonlarımızın köçkün düşmüş camaatı ilə söhbətləşib, paytaxtdakı başbilənlərimizin başı var-dövlət yığmağa, kürsü davasına qarışan zaman Vətənimizin və vətəndaşımızın müdafiəsinə qatılmış polisin öz qanı və canı hesabına insanları, həm də insanlığı qoruduğuna qulaq şahidliyi edəsiniz, müstəqil Azərbaycan Polisinin ilk səhifələri şəhid qanı ilə yazılan şanlı tarixini öyrənəsiniz...,

Polisimizin cinayətkar ünsürləri, asayişimizi pozmağa cəhd edənləri zərərsizləşdirərkən, dövlətimizi və dövlətçiliyimizi təhdid və qəsdlərdən qoruyarkən canından və qanından keçməsini də xatırlatmaq istərdim... amma, bu yerdə haqlı olaraq, deyə bilərsiniz ki, bu onların vəzifəsidir... asayişi qorumaq, cinayətkarı tutmaq və s.

Belədirsə, onda, vəzifəsi sizin, bizim, hamımızın asayişini, əmin-amanlığını qorumaqdan, andı isə canını bu yolda fəda etməkdən ibarət olan və bunu bütün dövrlərdə dönə-dönə sübut edən polisə çamur atmaq olarmı?

Bu nəyə lazımdır? Yox, sual düzgün olmadı. Bu kimə və ya kimlərə lazımdır?

Bu, ilk növbədə o kəslərə lazımdır ki, bulanıq suda hələ də balıq ovlamaq sevdası ilə yaşayırlar. Hansılar ki, polislə həmvətənləri arasında keçilməz sədd qurmaq, sadə insanlarımızın asayişini təhlükə altına atmaq, ölkədə vətəndaş itaətsizliyi yaratmaq, dövlətimizi parçalamaq niyyəti güdürlər. Başqa necə demək olar ki, bu gün özünü azad düşüncə carçısı, bloqer və s. adlandıranlar ağına-bozuna baxmadan polisin ünvanına hədyan deyir, onu gözdən salmağa çalışırlar.

Səbəbi... onun və onun kimilərinin icazəsiz yürüşlərinə, mitinqlərinə, toplantılarına polis "imkan" verməyib;

Qaydaları pozduğuna görə özünün, "yaxın qohumunun" avtomobilini polis saxlayıb tədbir görüb;

Bu günə qədər "siqaretin, içkinin dadını bilməyən, yaxud da toyuq başı kəsməyi belə bacarmayan" "qonşusunu" narkotik satdığına, digər bir cinayətinə görə polis "tutub" aparıb;

Xaricdəki sponsorlarına göstərməkdən ötrü 3-5 nəfərin boş şüarlarla küçədən keçmələrini lentə almağa polis "mane" olub.

Bu "səbəb"lərin sayını artırıb sərhədlərimizin hüdudlarından kənarda Azərbaycanı insan haqlarının boğulduğu ölkə kimi qələmə verənlər başa düşmək bir yana, anlamaq istəmirlər ki, polis, ilk növbədə, elə onların özlərinin təhlükəsizliyi üçün belə "mərasimlərdə" aparılan videoçəkilişlərin piar məqsədini başa düşüb, həm də öz nüfuzuna "kölgə salınacağını" gözü önünə alaraq qanuni şəkildə zəruri olan addımları atır. Axı, polisin amalı budur...canı, qanı və hətta, nüfuzu hesabına insanların təhlükəsizliyini təmin etmək.

Bir anlıq təsəvvür edin ki, polis küçə yürüşlərinə heç bir formada müdaxilə etmir. Sizcə, nələr yaşanar? Bütün küçəni əl-ələ tutub gələn "məsləkdaşlar" hədəf seçdikləri meydana daxil olarkən "görkəmli" yerləri tutmaqdan ötrü ən yaxşı halda söyüşlərlə müşayiət olunan saçyoldusuna çıxarlar.

Pisindən isə..., tanrı bizi qorusun!

Əziz gənclər, onu da bilin ki, polis qaydanı pozmayan sürücü barəsində nahaqdan tədbir görmür, heç bir cinayətdə əli olmayan həmvətənini əsassız həbs etmir. Əlbəttə, soruşa bilərsiniz ki, əgər nahaq yerə tədbir görülmürsə, yaxud əsassız yerə tutulan, həbs edilən yoxdursa, onda araşdırmalar nəticəsində təqsirin sübuta yetməməsi kimi hallar, bu motivasiya ilə cəza alanlar haradandır?!

Təbii ki, belə hallar da mövcuddur, onların da hamısının kökündə insan amili, peşəkar(sız)lığa, mənəvi-psixoloji hazır(sız)lığa söykənən subyektiv məqamlar dayanır. Bütöv bir sistemi, orqanı bunda günahkar bilmək hansı məntiqə, əxlaqa və mənəviyyata sığır?

Yeri gəlmişkən, qeydə alınan bəzi neqativ halları ortaya çıxaran da, bu barədə cəmiyyəti məlumatlandıran da elə polisin aidiyyatı qurumlarıdır. Polis qüdrətlənməkdə olan Azərbaycanımızın inkişafına, təhlükəsizliyimizə, dövlətimizə və dövlətçiliyimizə qarşı olan hər bir qanunsuzluğa, pozuculuğa, özbaşınalığa qarşıdır. Buna görə də alnıaçıq, üzü ağdır və qazandığı nailiyyətlərlə yanaşı, nöqsanlarını da xalqdan gizlətməyə lüzum görmür… çünki, Polis bizim hamımızındır!

***Elxan Mürsəlov,***
***polis polkovnik-leytenantı***

# VALİDEYNLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB

**Bu il Daxili İşlər Nazirliyinin Polis Akademiyasının 1-ci kursuna qəbul olunan kursantların valideynləri ilə tədris ocağının rəhbərliyinin görüşü təşkil olunub. Əvvəlcə valideynlər ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənildiyi mərkəzin fəaliyyəti ilə yaxından tanış olublar. Mərkəzdə ümummilli liderin Azərbaycan dövlətinin qüdrətlənməsi naminə həyata keçirdiyi titanik fəaliyyətin, onun həyat yolunun kursantlara tədris olunduğu diqqətə çatdırılıb.**



Daha sonra Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev kursantları və onların valideynlərini əlamətdar hadisə münasibətilə təbrik edib, bu ali təhsil müəssisəsinin daxili işlər orqanlarının ixtisaslı kadrlarla təminatında mühüm rol oynadığını, məzunlarının bir çoxunun ölkə miqyasında və nazirlik sistemində rəhbər vəzifələrdə xalqına, Vətəninə layiqincə xidmət etdiklərini, cinayətkarlıqla mübarizəyə, insan hüquq və azadlıqlarının təmini işinə dəyərli töhfələr verdiklərini məmnunluqla xatırladıb. Polis general-mayoru Nazim Əliyev polisin peşəkarlıq səviyyəsinin daim artırmasının bir vəzifə kimi ölkə və DİN rəhbərliyi tərəfindən qarşıya qoyulan ən vacib tələblərdən biri olduğunu diqqətə çatdırıb. O, Akademiyanın daxili nizam-intizam qaydaları barədə məlumat verək qeyd edib ki, burada hər bir kursantın yüksək ixtisaslı kadr kimi formalaşması, xidməti borca və anda sadiq qalması, öz üzərində işləməsi və peşəkarlığını artırması üçün hər cür şərait yaradılıb, cəsur, mübariz, qətiyyətli, prinsipial, savadlı, təşəbbüskar polis zabitləri hazırlamaq üçün tədris ocağının pedaqoji kollektivi ilə yanaşı valideynlərin də üzərinə böyük məsuliyyət düşür.

Polis general-mayoru Nazim Əliyev Akademiyaya yeni qəbul olunan kursantlara polis adını daim uca tutmağı, professor-müəllim heyətinin bilik və təcrübəsindən yararlanmağı tövsiyə edib.



Sora valideynlər Akademiyanın yeni istifadəyə verilən tədris binası ilə tanış olublar. Altımərtəbəli binanın müasir səviyyədə və yüksək zövqlə inşa olunduğu, burada təlim-tədris üçün hər cür şərait yaradıldığı, 138 nəfərlik oxu zalı və elektron kitabxananın kursantların ixtiyarına verildiyi, yeni binada ümumilikdə 1400 kursant yerlik 11 mühazirə zalının mövcud olduğu xüsusi vurğulanıb.



Ali təhsil müəssisəsində təhsil alan hər bir kursantın sağlam şəraitdə qidalanması və dincəlməsi üçün yaradılan şəraiti valideynlər özləri də müşahidə ediblər. Polis Akademiyasının idman meydançaları və zalları ilə tanış olan valideynlərin diqqətinə çatdırılıb ki, tədris ocağında kursantların fiziki cəhətdən sağlam ruhda tərbiyə olunmalarına xüsusi diqqət yetirilir. Görüşdə Polis Akademiyasının tarixindən və görülən işlərdən bəhs edən videoçarx nümayiş etdirilib.

***Anar Qafarov,***
***polis baş leytenantı***

# SÖZÜ ÜRƏYİNDƏ QALAN CƏBRAYIL

**Araz qırağında bir yurd yerimiz vardı. Əlinin qabarıyla qurub-yaratdıqları ev-eşiklərində halal ocaq çatan əhalisi dağlara söykənmişdi. Qardaş-qardaşa dünənimizi bu günümüzə calayıb bağlayan tariximizin körpüsü - Xudafərin yolu da burada salınmışdı. Sazlı-sözlü sinələrin vəsfinə sığmayan bu yerin adı Cəbrayıldı.**



Süfrə açan, çörək verən bu elə-elatın havasına hələ 1898-ci ildə birinci erməni ayağı dəyəndən qan qoxusu qarışdı. 1905-1907-ci illərdə 231 nəfəri, 1918-1920-ci illərdə isə 12 kəndi büsbütün yandıraraq 117 nəfər yerli sakini amansızlıqla qətlə yetirdilər. Bütün bunları Dağlıq Qarabağda və Ermənistanla həmsərhəd bölgələrdə münaqişə ocağı çatılanda o vaxtkı respublika rəhbərliyi unutmuşdu. Xalqın taleyinə biganə yanaşıb yalnız siyasi karyeralarını düşünən vəzifə hərisləri erməni ekstremizminin və terrorizmin günü-gündən daha da genişlənərək hansı təhlükəli həddə çatdığını ya görmürdülər, ya da görmək istəmirdilər. Hər addımlarına Moskvadakı "ağaları"nın gözü ilə baxıb, hər hərəkətlərini ölçüb-biçən bu başabəla rəhbərləri kütlənin hiddət seli süpürüb atandan sonra isə saxta vədləri ilə xalqın etimadını qazanıb hakimiyyətə yiyələnən AXC-Müsavat cütlüyünün nümayəndələri də heç bir kəsərli tədbirlər görə bilmədilər. Müharibə şəraitində yaşayan bir ölkədə ordu quruculuğu qeyri peşəkarlara tapşırılıb, başlı-başına buraxıldığından cəbhədə vəziyyət getdikcə daha da pisləşdi. Biri-birinin ardınca yaşayış məntəqələri, kəndlər, nəhayət, bölgələr düşmənin qanlı caynağına keçdi. 1993-cü il avqustun 23-də Füzulinin süqutundan sonra növbə Cəbrayıla çatdı. Cəbrayıl 360 nəfərdən çox şəhid verdi, 166 nəfər isə əlil və şikəst oldu. Yurdu qoruyanlardan 6 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Sözü ürəyində, gözü yolda qalan Cəbrayılın 60 min əhalisi respublikamızın 68 bölgəsində məskunlaşıb. Bu gün Cəbrayılı görməyən uşaqdan, o dağlarda nisgili qalmış ahıla qədər hamını birləşdirən bircə ümid var – o torpaqlara qayıdacağıq. Bunun üçün gücümüz, qüdrətimiz və Ali Baş Komandanımızın hücum əmrinə hazır, əli tətikdə gözləyən ordumuz var.

***Ə. Ruhiyyə***

# SƏRHƏDLƏRİ AŞAN UĞURLARIMIZ

**Sosial şəbəkələrdən oxuduğum xəbər məni məyus etdi. Azərbaycanın uğurlarının, o cümlədən idman nailiyyətlərinin kölgəsində qalan, daha doğrusu, yoxa çıxan bədnam qonşumuz heç bir sahədə bizimlə rəqabət apara bilmədiyi üçün bu dəfə "məndə varam" demək məqsədilə Qarabağda məhəllə uşaqlarının "dava-dava" oyununa bənzər "Pan Armeniyan" adlı idman yarışları keçirir...**




Yarışların əhatə dairəsi dünyaya yolçu qismində səpələnmiş ermənilərin yığma komandasından ibarətdir. Ancaq özləri də yaxşı başa düşürlər ki, belə "oyunlarla" heç nəyə nail ola bilməyəcəklər. Haqq əvvəl-axır öz yerini tapacaq. Diplomatik masalar nə vaxtsa onların üzünə bağlanacaq və düşmənin varlığını sual altında qoyan Azərbaycanın terrorla mücadiləsi, torpaqlarımızın azadlığı uğrundakı müharibə qaçılmaz olacaq. Hələ ki, onlar boğulmaq anında "bəlkə də xilas edərlər" xülyası ilə çırpınaraq imdad diləyirlər...

Təəssüflər olsun ki, ölkəmizə qarşı olan ikili standartlara son qoyulmur, "biz Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləyirik" deyənlər susqunluq nümayiş etdirir, ermənilərin bu oyunlarını görməzlikdən gəlirlər...

Bu gün dünyanın və Avropanın aparıcı dövlətləri sırasına daxil olan, eləcə də sabitlik adası kimi tanınan Azərbaycan "Birinci Avropa Oyunları"na, "IV İslam Həmrəylik Oyunları"na, "Fomula 1 Qran-Prisi" yarışlarına, "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına və sadalamadığımız daha neçə dünya və qitə çempionatlarına, mötəbər idman yarışlarına evsahibliyi edib və möhürünü vurub. İstər yüksək təşkilatçılıq qabiliyyəti, istərsə də təhlükəsizlik sahəsində yaddaşlarda silinməz izlər buraxaraq idmansevərləri təəccübləndirməyi bacarıb və dünya idman həyatında Azərbaycan brendi adı ilə tanınaraq yeni səhifələr açıb.




"Sərhədləri aşan uğurlarımız dörd okeanı əhatəliyir". Bunu biz demirik, irili-xırdalı dünya xəritəsində əks olunan ölkələr deyir və Azərbaycan həqiqətləri, Azərbaycan artıq dillər əzbəridir. Bu bizim son 15 ildə əldə etdiyimiz uğurlarımızdır. Hələ qabaqda neçə-neçə möhtəşəm yarışların ölkəmizdə keçirilməsi planlaşdırılır.

***Teymur Əlizadə,***
***polis kapitanı***

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ ƏMƏLİYYAT VƏ STATİSTİK İNFORMASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı, o cümlədən respublikanın Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi "ASAN xidmət" mərkəzlərinin hər birində 4, ümumilikdə 24 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 (qadınlar), 170 (kişilər) santimetrdən yuxarı olan özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı, Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi şəhərlərində və ətraf rayonlarında daimi qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu ilin iyul ayının 18-dən avqust ayının 18-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri Nizami rayonu Məhsəti küçəsi 160-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə bilavasitə tabe olan Arxiv-uçot şöbəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-Şəxsiyyət vəsiqəsi***
***-Təhsil haqqında sənədin əsli***
***-Hərbi bilet (kişilər üçün)***
***-əmək kitabçası (olanlar üçün)***

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 570-70-80;**

***Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi***

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı (30), o cümlədən respublikanın Tovuz (22), Balakən (18), Ağcabədi (18), Kürdəmir (18) və Şamaxı (18) "ASAN xidmət" mərkəzlərində ümumilikdə 124 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı şəhərində, Tovuz, Balakən, Ağcabədi, Kürdəmir, Şamaxı və ətraf rayonlarında daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu il iyul ayının 25-dən avqust ayının 25-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-Şəxsiyyət vəsiqəsi***
***-Təhsil haqqında sənədin əsli***
***-əmək kitabçası (olanlar üçün)***

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41;(012) 590-64-31 (312) daxili**

***Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi***

## 50 YAŞIN SEVİNCİ və KƏDƏRİ

**"50-dən sonra nə olacaq bilmirəm, amma 50-dən geri boylananda dərdin ən böyük zirvəsini, uşaqlığımın, ilkinliyimin ilk və son ünvanı və bu gün həsrətinə boy verə bilmədiyim Xocalını görürəm",- dedi.**

Həmsöhbət olduqdan sonra bir daha yəqin etdim ki, onun kimi oğulların yaddaşında doğulduğu, qoynunda boy atdığı torpaq, yurd yeri itiriləndən sonra xatirəyə çevrilmir, dağı-daşı, otu-çiçəyi, bulağı və çayı ilə hopub qalır.

O, torpaq qədər kövrək imiş. Bu oxşarlığı bir az obrazlı demək istəyirəm. Torpaq kövrələndə bulaq gözləri qaynayır, bağrının yanmış başında bağrıyanıq lalələr boy verir və küskünlüyünü bir ağac dibində boynunu bükən bənövşə şəklində görürük. İllər öncə olduğu kimi bu gün də əyninə geyindiyi polis mundirində döyüşlərə atılmaqdan ötrü burnunun ucu göynəyir polis pokovnik-leytenantı Təyyar Rzaquliyevin. Həsrətdən yanağına xal düşmüş lalələrin, çəkdiyi ahın oduna yanmış bənövşələrin, buzunu dolça qırmaz bulaqların könlünü alıb onları ovundurmaq istəyir.



O, Xocalıya getmək istəyir. Bu gün

Xocalıda 27 il bundan öncəki fevralın buzu hələ açılmayıb. Elə xocalıların da yaddaşı donub. Bu buz o zaman əriyəcək, bu don o zaman açılacaq ki, qisası qiyamətə qoymayan oğullar düşmənin başına od ələyəcəklər.

İnsan torpağın elə bir xoşbəxt formasıdır ki, o düşünə və danışa bilir. Həmkarım da torpaqürəklidir və onun üçün ən müqəddəs torpaq bu gün xocalıların qanı hopduğu torpaqdır. Hər gün gördüyü, əli çatan, ünü yetən yer haqqında keçmiş zamanda danışmağın ağrısı dəyirman daşı kimi ürəyindən, gözlərindən, çəkdiyi hər ahdan asılıb. Ağlı-qaralı şəkillərə gözlərini zilləyib "Xatırlamaq keçmişdə qalanı düşünməkdir, yada salmaqdır" fikrini 27 il öncə uzaq düşdüyü Xocalı eşidəcəkmiş kimi astaca pıçıldayır.

Ürəyi ilə əlbəyaxa olub keçmişə boylanır və biz də bu susqunluğun verdiyi fürsətdən istifadə edib alın qırışlarındakı ömür yolunu oxumağa çalışırıq.

**Cəlilabad RPŞ rəisinin xidmət üzrə müavini, polis polkovnik-leytenantı Təyyar Bəyvələd oğlu Rzaquliyev** 1969-cu ildə Xocalıda doğulub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağrılıb. Almaniyada xidmət edib. Tərxis olunduqdan sonra Xocalıya qayıdıb və 1991-ci ildə daxili işlər orqanları sıralarına qəbul olunub. Xocalının müdafiəsində iştirak edib. Faciə zamanı altı gün meşədə qalıb, öldü-qaldı xəbəri bilinməyib. Zülümdən canını qurtarıb Ağdama pənah gətirən xocalılar kimi o da Ağdama gəlib. Həyatının ən böyük dəhşətini yaşayıb. Sizcə sağlığında ona qurulan yas çadırı ilə qarşılaşan insan hansı hissləri keçirərdi?!...



Ağdam Rayon Polis Şöbəsində xidmətini davam etdirən həmkarımız silahı yerə qoymayıb və silahdaşları ilə birgə "Daşbaşı", "Cinni", "Sırxavənd", "Gülablı", "Şelli" kəndləri uğrunda gedən döyüşlərdə düşmənə qan uddurub. "Daşbaşı" əməliyyatında şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən İnqilab İsmayılovu Xocalı kimi unuda bilmir...

Azərbaycan Dövlət Pedoqoji Universitetini və Polis Akademiyasını bitirib. 2010-cu ilə kimi cəbhə bölgəsində yerləşən Xocalı Rayon Polis Şöbəsində xidmət edib. Elə həmin il Neftçala Rayon Polis Şöbəsinə rəis müavini təyin olunub. 2014-cü ildə Salyan Rayon Polis Şöbəsində xidmətini davam etdirib. 2018-ci ilin iyunundan Cəlilabad RPŞ-nin rəis müavinidir. Möhtərəm Prezidentimiz tərəfindən "Vətən uğrunda" medalı ilə təltif olunub. Beş əsgər, beş polis atasıdır....

Və polis polkovnik-leytenantı Təyyar Rzaquliyev 50 yaşın hesabatını Xocalıda tank altında xıncım-xıncım olan qandaşlarına, soydaşlarına, onların nigaran ruhuna, uçub-dağılmış ata yurduna, ocağı sönmüş ocaq yerinə verməyi arzulayır. Bu arzuya 51-də, 52-də deyil, daha tez, lap elə günü sabah çatmağı diləyir uca Yaradandan.

...Xocalı faciəsindən sonra yer üzündə xocalı adına heç nə yox idi. Xocalı Rayon Polis Şöbəsi də yerlə-yeksan olmuş, əməkdaşlarının çoxu şəhidlik zirvəsinə ucalmış, əlil və şikəst olanlar isə "Yarım ürək yarım ömrə bəs edər" nisgilinə söykənib itirdikləri əllərini, ayaqlarını Xocalıya xatir, onu azad etmək üçün döyüşə atılmaq naminə bircə gün də olsa bir möcüzə ilə Allahdan geriyə qaytarmasını dünən də istəyiblər, bu gün də daha böyük yanğı ilə istəyirlər.

Səngər-səngər qazılan ürəyimiz və tətikdəki əllərimiz bircə sözdən ötrü darıxıb-bundan üç il öncəki apreldəki kimi "keçilməzləri" keçək və Xocalıya, Şuşaya, Laçına, Kəlbəcərə, Qubadlıya....Cəbrayıla gedək.

**Sözardı:** Xocalı Polis Şöbəsinin 51 nəfər şəxsi heyətinin 26-ı şəhid olub. Onlardan 4-ü Azərbaycanın Milli Qəhrəmanıdır. Əslində, həmkarımızın atası Bəyvələd kişi də QƏHRƏMANDIR. O, yola-izə yaxşı bələd olduğundan faciə zamanı 80 nəfər Xocalı sakinini ölümün ağzından alıb Ağdama gətirib. Don vurmuş ayaqlarla çox yaşamaq qismət olmayıb və 58 yaşında Xocalı nisgili ilə gözlərini yumub.

***Hafiz Təmirov, polis mayoru***

## KÖMƏK DƏ GÖSTƏRDİLƏR, NƏVAZİŞ DƏ...

**"Memar Əcəmi" stansiyasında metropoliten işçilərinin biri-birinə bərkdən "təcili yardım çağırın" deməsini eşidib geri çevrildim. Gənc qız huşunu itirmişdi. Ətrafına toplaşanlar isə heç nə edə bilmirdi.**

Köməyə yenə də polis əməkdaşları çatdı. Onlar qıza təcili yardım gələnə kimi ilkin tibbi yardım göstərmək üçün xidməti otaqlarına apardılar. Mən də ora yaxınlaşdım. Polislər su ilə qızın üzünü silib saçını sığallayır, nəvaziş göstərir və "qorxma hər şey yaxşıdı, biz də, nənən, baban da yanındayıq",-deyirdilər.





O, yavaş-yavaş özünə gəlirdi. Yaşlı nənə və baba özlərini itirmişdilər. Polis əməkdaşlarına: "Ay bala, qurban olum, nəvəmə kömək edin",-deyərək imdad diləyirdilər. Nə baş verdiyini soruşdum. Polis əməkdaşları: "Heç, balaca qızımız bir az narahat olub, indi isə yaxşıdı",-dedilər.

Bir-iki şəkil çəkmişdim ki, yaxınlaşıb məni otaqdan uzaqlaşdırmaq istədilər. Müxbir olduğumu, onların bu nəcib əməli haqqında xəbər hazırlamaq istədiyimi bildirdim. Buna ehtiyac olmadığını, metroda belə halların çox olduğunu dedilər.

Metropoliten işçisindən həmin polislərin adlarını soruşdum…

Bu yazıdan Metropolitendə Polis Şöbəsinin əməkdaşları–polis serjantı Şəhriyar Verdiyevin və polis kiçik serjantı Vaqif Bəşirovun xəbəri yoxdu. Ümid edirəm ki, "Mübariz keşikdə"ni oxuyanda onlar da o gün mənim keçirdiyim qürur hissini yaşayacaqlar.

***R.Əliyeva, polis baş leytenantı***

## BİZİ BU ÇƏTİN DURUMDAN POLİS ÇIXARTDI

**"Dünən gecə dostumla rayondan gəlirdim. Birdən avtomobilin yanacağı bitdi. İşin tərsliyindən üstümdə pulum yox idi. Yanacaqdoldurma məntəqəsinə yaxınlaşanda məlum oldu ki, dostumun da pulu yoxdur.** O, pulqabını itirmişdi. Gecə ikən kimsəni narahat etmək istəmədik və elə maşındaca yatmağa qərar verdik. Yerimizi rahatlamışdıq ki, yanımızda YPX avtomobili dayandı. Bir nəfər polis əməkdaşı maşından düşüb bizə tərəf gəldi və özünü təqdim etdi. Başımıza gələnləri danışdıq. O, yanacaqdoldurma məntəqəsinə gedib tez də qayıtdı. Benzin alıb gətirmişdi. Maşına benzin töküb yola düşmək istəyəndə, bizi BDYPİ-nin Saray qəsəbəsi ərazisindəki stasionar postuna dəvət etdi, burada yatıb-dincəlməyimizi və səhər yola çıxmağımızı məsləhət gördü...

Səhər tezdən isə dostumun da, mənim də heyrətimizə səbəb olacaq daha maraqlı bir hadisə yaşandı. Elbəy adlı həmin polis əməkdaşı cibindən pul çıxarıb bizə verdi ki, yolda hər hansı bir problemlə üzləşməyək və mənzil başına rahat çataq. Bizə kömək etdiyinə görə DİN rəhbərliyinə və BDYPİ-nin YPX-nin əməkdaşı Elbəyə minnətdarıq. Allah onu heç vaxt yolda qoymasın."

Bu sözləri Bakı şəhər sakini Elçibəy Məmmədov DİN-ə ünvanladığı minnətdarlıq məktubunda yazır...

Sabitliyin, əmin-amanlığın keşiyində mətin dayanan, darda olanların imdadına yetən, köməyinə tələsən Azərbaycan Polisi nəcib əməli, insanpərvərliyi ilə hər zaman nümunə olmağı bacarır. Bu dünən də belə olub, bu gün də belədir, sabah da belə olacaq...

***Teymur Əlizadə, polis kapitanı***

## MARAQ DÜNYASI

### *"APOLLON-11" EKİPAJI ÜZVLƏRİNİN HEYKƏLLƏRİ HAZIRLANIB*

ABŞ-da ilk dəfə Aya uçan "Apollon-11" kosmik gəmisinin ekipajının üzvləri Nil Armstronq, Edvin Bazz Oldrin və Maykl Kollinzin kərə yağından heykəlləri hazırlanıb. Maraqlı heykəllər Ohayo ştatında keçirilən illik kənd təsərrüfatı yarmarkasında nümayiş olunub. NASA-nın hər üç astronavtının fiqurları onların natural ölçülərində hazırlanıb.

Kompozisiyanın hazırlanmasında 907 kiloqram kərə yağından istifadə olunub. Sinsinatti şəhərindən olan heykəltəraşlar astronavtların skafandrlarının düzəldilməsində əməllicə çətinlik çəkiblər. Heykəltəraşlardan biri Aleksander Balz deyib: "Düzünü desək, skafandrların düzəldilməsi bizim üçün əsl imtahan oldu. Bələd olduğun əşyaları hazırlamaq asandır, skafandrlar isə..."

Bu kompozisiyanın Ohayo fermerlərinin yarmarkasında nümayişi də təsadüfi deyil. Aya ilk ayaq basan astronavt Nil Armstronq 2012-ci il avqustun 25-də Ohayo ştatının Sinsinatti şəhərində vəfat edib.

### *"UÇAN MOTOSİKLLƏR"*

Tokioda yerləşən "ALI Technologies Inc." startap şirkəti uçan motosikllər üçün sifarişlərin qəbuluna başlayır.

Pilotsuz kiçik aparatların yaradılması ilə məşğul olan bu startap şirkət yetkililəri keçiriləcək "Tokyo Motor Show" avtomobil sərgisində onu nümayiş etdirməyi düşünürlər.

Yeni texnologiyaların istifadə edildiyi həmin aparat əsasən, imkanlı əcnəbilər üçün nəzərdə tutulur. İlkin sifarişlər əsasında təqribən 100-dək motosiklin satışı planlaşdırılır. Təqribən yerdən 10 metr hündürlükdə uçan bu motosikllərin maksimal sürəti saatda 200 kilometrə çatır.

### *"QIZIL UDAN" QADIN*

Hindistanın Qərbi Benqal əyalətində cərrahlar əməliyyat zamanı 26 yaşlı psixi problemlərinin olduğu bildirilən qadının mədəsindən 5 və 10 rupi dəyərində 90 ədəd sikkə, zəncir, Hindistan qadınları arasında populyar olan və buruna taxılan üzük, sırğa, ələ və ayağa taxılan bilərziklər, habelə qadın saatı çıxarıblar. Onun anası jurnalistlərə deyib: "Biz hər dəfə qiymətli əşyaların yoxa çıxdığının şahidi olurduq, amma ondan soruşduqda, ağlamağa başlayırdı". Məlum olub ki, gənc qadın bütün bu əşyaları yemək zamanı udurmuş.

İtən əşyaların çoxu misdən olsa da arasında qızıl bəzək əşyaları da var. Hindistanlılar sosial şəbəkələrdə bu qadının ailəsinə qızılları saxlamaq üçün seyf almağı məsləhət görüblər. Gənc qadın isə müalicə olunmaq üçün psixiatra göndəriləcək.

***Ə.Ruhiyyə***

**Xalq yazıçısı İsmayıl Şıxlının adını başlığa çıxardığım hekayəsini oxuyanlar nə demək istədiyimi yəqin ki, anladılar. Ən böyük sərvətimiz olan milli kimliyimizə, sahib olduqlarımıza görə bizi hər zaman parçalamağa, təkləməyə fürsət axtaranlar məqsədlərinə nail olmayanda içimizdəki "yalıncıq"ları qızışdırıblar. Bu dünən də belə olub və təəssüf ki, bu gün də belədir.**

# "SAPI ÖZÜMÜZDƏN"DİR

Xaricdə oturub özlərini söyənləri, mənəviyyatlarını itirmişləri, oturduqları budağı kəsənləri xalqımız yaxşı tanıyır. Etdikləri çağırışların müəllifinin kimlər olduğu da məlumdur. Vicdanını satanların istəkləri çoxdur. Çalışdıqları bircə şey var: xalqla polis arasında soyuqluq yaratsınlar. Ancaq düşünmürlər ki, bu gün ölkənin sabitliyini, asayişini qoruyan polis xalqın övladıdır, doğmasıdır.

Son zamanlar özünü "siyasi mühacir" adlandırıb xarici kəşfiyyat orqanları tərəfindən maliyyələşən və onların zurnasına zuy verənlər ölkəmizdə də fəallaşıblar. Əllərinə plakat alıb, ağızlarını yapışqan lentlə bağlayıb özlərinə, sözlərinə "azadlıq" istəyirlər.

Çiçəklər baharda açar, torpaq baharda sevinər. Ancaq "Ərəb baharları"nın soldurduğu çiçəklər bundan yüz illər sonra belə nə Liviyada boy verəcək, nə də ki, Suriyada...

"Azadlıq" istəyənlərin, Azərbaycanı 90-cı illərdəki kimi görmək istəyənlərin həm qorxduğu, həm də hədəfi Azərbaycan Polisidir. Ona görə qorxurlar ki, polis onların təxribatlarının qarşısını vaxtında alır, qanunsuz əməllərinə göz yummur. Gücləri çatan qədər qarayaxmaqla məşğuldurlar.

Bu günlərdə sosial şəbəkələrdə izlədiyim "Azərbaycanda polis və sürücü" başlıqlı videoçarxla bağlı da boş dəyirman kimi üyüdüb-tökmüşdülər...

Həmin videoçarxda görünür ki, sürücü YPX inspektoru tərəfindən saxlanılır və o, polis əməkdaşı ilə arasındakı dialoqu gizli şəkildə çəkir. Sürücünün məqsədi bəllidir: mübahisə yaratmaq və bunu ictimailəşdirmək. Polis humanist davranır və sürücüyə protokol tərtib olunmur. Digər videoçarxda isə ABŞ-da sürücü qadın polisə tabesizlik göstərərək maşını sürüb gedir. Davam edən təqibdən sonra həmin nəqliyyat vasitəsi saxlanılır və polis yaşlı qadını yerə yıxaraq qollarını sərt şəkildə qandallayır. Məncə, əlavə sözə və müqayisəyə ehtiyac yoxdu...

Sadəcə ABŞ polisi yazıb internetdə axtarış versək və qarşımıza çıxan videoları izləsək "bunu polis edərmi" sualı qurd kimi beynimizi gəmirər...

Xarici ölkələrdə tabesizlik göstərən vətəndaşa polisin silahdan atəş açmasını adi hal kimi qəbul edənlər bu gün Azərbaycan Polisinin qanuna tabe olmaq üçün vətəndaşa qanunun tələbini izah etməsini belə qəddarlıq, kobudluq kimi qələmə verirlər. Təkcə 2017-ci ildə Amerika polisinin gülləsindən 987 nəfər vətəndaş həlak olub...

Azərbaycanda bu statistika sıfıra bərabərdir. Azərbaycan Polisi vətəndaşına güllə atmır, onu hər yerdə təhlükədən qoruyur, onu sevir və sayğı ilə yanaşır. Filosof yazıçı Umberto Ekonun təbirincə desək, həqiqətin gücü elədir ki, o, eynilə yaxşılıq kimi öz-özünə yayılır.

*T.Hafiz,*
*V.Ruslan*

# POLİS ÜÇÜN...

**DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənovun və İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mulayim Xıdırovun tərtib etdikləri xidməti istifadə üçün "Əlbəyaxa döyüş və silahsız özünümüdafiə üzrə metodiki təlim vəsaiti" işıq üzü görüb.**




Metodik vəsaitdə əlbəyaxa döyüş və silahsız özünümüdafiənin tarixi və inkişaf yolundan, əlbəyaxa döyüşün ilk dəfə hüquq-mühafizə orqanları sistemində və güc strukturlarında tətbiqinin XIX və XX əsrlərə təsadüf etdiyindən ətraflı bəhs edilir.

Müəlliflər Azərbaycanda da əlbəyaxa döyüşün qədim tarixi barədə geniş məlumat verir, bu oyunların xalqımızın yaddaşının sütünlarından olan "Kitabi Dədə Qorqud" dastanında yer aldığı tarixi faktlara da diqqət çəkirlər.

Özünümüdafiə fəndlərinin şəkillərlə vəsaitdə yer alması cinayətkarlıqla mübarizədə qətiyyət nümayiş etdirən polisimizə və sıralarımıza qatılan gənclərə yardımçı olacaq, onlar bu idman növünün sirlərini daha yaxşı mənimsəyəcək və zərurət olduğu halda uğurla tətbiq edəcəkər.

Kitabın rəyçiləri DİN Baş Kadrlar İdarəsinin Təhsil, təlim, ixtisasartırma şöbəsinin rəisi, polis polkovniki Əziz İsaxanov, Azərbaycan Respublikası Ciu-Citsu Milli Federasiyasının prezidenti Mirəli Seyidov və Avrasiya Kombat Ciu-Citsu Federasiyasının prezidenti Rəsul Məmmədovdur.

*Natiq Abdullayev,*
*polis kapitanı*







**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**
**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |




Efiopiyanın şimalındakı Amhar ştatının rəhbərliyi insan alveri ilə məşğul olan cinayətkar qrupun əlindən 2018-2019-cu illərdə 882 nəfərin xilas edildiyini bildirib. Azad olunanların 440-ı qadın olub.

Bu barədə Amhar ştatının sosial məsələlər və məşğulluq idarəsi məlumat yayıb.

Həmçinin qeyd olunur ki, regional polis insan alveri ilə məşğul olmaqda şübhəli bilinən 32 efiopiyalını həbs edərək məhkəməyə verib. Məlumatda bildirilir ki, sürətli iqtisadi inkişafa, sosial mühitin yaxşılaşmasına və ölkə rəhbərliyi tərəfindən insan alveri barədə ictimai məlumatlandırma kampaniyasının keçirilməsinə baxmayaraq, hər il minlərlə efiopiyalı qeyri-leqal yolla xarici ölkələrə qul kimi aparılır. Efiopiyadan oğurlanmış adamları cinayətkarlar üç əsas istiqamətdə – Ərəbistan yarımadasına, Avropanın materik hissəsinə və Cənubi Afrikaya aparırlar.

*****

***Dubay polisi "ağıllı" mobil əlavəni yeniləyib və onu fövqəladə hallarda polislə təcili əlaqə saxlanılması üçün SOS düyməsi ilə təchiz edib.***

***Təcili əlaqə yenilənməsindən başqa əlavədə yol-nəqliyyat hadisələrini proqnozlaşdıran və yaxınlıqdakı polis şöbəsi, xəstəxana, aptek və dövlət xidmətlərinin ödəniş mərkəzləri qeyd olunan "My Map" yol xəritəsi funksiyaları da mövcuddur. "All in One Camera" funksiyası isə yol hərəkəti hadisələri və qanun pozuntuları barədə polisə məlumat vermək imkanı yaradır.***

***Mobil telefondan, həmçinin polisin virtual muzeyinə səyahət etmək olar. Dubay Polisinin süni intellekt üzrə baş departamentinin istifadəyə verdiyi sonuncu yenilənmiş əlavəsindən Android və IOS istifadəçiləri yararlana bilərlər. Əlavə yeddi dildə, o cümlədən rus dilində istifadəyə verilib.***

*****

Çinin Yunnan vilayətində polisin keçirdiyi 2 əməliyyat nəticəsində ümumilikdə 123,8 kiloqram narkotik vasitə müsadirə edilib.

Əvvəlcədən daxil olan məlumat əsasında keçirilmiş əməliyyat nəticəsində iyulun son günlərində qonşu Myanmadan Çinə gələn avtomobil saxlanılıb və 44 kiloqram tiryək müsadirə olunub.

Həmin gün digər şübhəli avtomobildə isə 11,6 kiloqram heroin aşkarlanıb və iki nəfər saxlanılıb.

Digər əməliyyat zamanı isə narkotik maddələrin qaçaqmalçılığı ilə məşğul olan şəxslərdən 67,5 kiloqram metamfetamin maddəsi müsadirə edilib. Hazırda təhqiqat aparılır.

*****

***Yeni Zelandiyanın hüquq-mühafizə orqanları Oklenddə keçirilən əməliyyat zamanı 200 kiloqram ağırlığında metamfetamin müsadirə edib. Ölkə polisinin "Twitter" səhifəsində avqustun 9-da yayılan məlumatda narkotik maddənin ümumi dəyərinin 93 milyon dollar təşkil etdiyi bildirilir.***

*C.Natiq*

## Avqustun 7-dən 13-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 132 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 45 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 106, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 6, borclu şəxs qismində axtarışda olan 42 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 29 nəfər ölmüş, 19 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 62 fakt müəyyən edilmişdir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti şöbə rəisi Əli Fəhradova qardaşı
**HÜSEYNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal RPİ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsimi RPİ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsimi RPİ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Pərviz İsmayılov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Mehman Həşimov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00